

Sürücülük vəsiqəsi almaq üçün imtahan şərtlərində dəyişiklik edilib. Bundan sonra sürücü olmaq istəyənlər üçün praktik avtomobil sürücülüyü imtahanı iki mərhələdə aparılacaq.

Nazirlər Kabinetinin təsdiqlədiyi dəyişikliyə əsasən birinci mərhələ xüsusi qapalı meydanda və ya motodramda, ikinci mərhələ isə sınaq marşurutlarında baş tutacaq. Yəni sürücülük vəsiqəsi almaq istəyən şəxslərə müəyyən olunmuş avtomagistral yolda hərəkət etmək imkanı yaradılacaq. Həmin şəxslər marşurutun xəritəsi ilə əvvəlcədən tanış ola biləcəklər. Hər iki mərhələyə nəzarət, informasiya komunikasiya texnalogiyaları tərəfindən həyata keçiriləcək. Sürücülərin bu dəyişikliyə münasibəti isə birmənalı deyil.

Artıq beynəlxalq təcrübədə də bu sistemlərdən istifadə olunur. Məsələn Finlandiyada sürücülük vəsiqəsini almaq istəyənlər bir neçə mərhələdə imtahan verməli olurlar. Bunun maraqlı tərəfi isə ondadır ki, sürücülər üçün nəzərdə tutulan məktəblər avtoparklar müxtəlif hava şəraitinə hesablanıb. Yəni sürücü olmaq istəyən şəxs istənilən fəsildə avtomobili düzgün idarə etmək bacarığına yiyələnməlidir.

Ümid edək ki, ölkəmizdə də sürücülük vəsiqəsi almaq üçün imtahan şərtlərindəki dəyişiklik zamanla öz nəticəsini göstərər.

{youtube}f74VASu7pBQ{/youtube}